Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın daxilində və xaricində bir-birini dəqiq tamamlayan multikulturalizm siyasəti...

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**"Azərbaycan Avropa ilə Asiyanın, Şərqlə Qərbin qovuşuğunda yerləşən ölkədir. Bu coğrafi mövqe ölkəmizi səciyyələndirən zəngin müxtəlifliyə təsir göstərib. Azərbaycanda məskunlaşan xalqlar arasında həmişə dostluq və qardaşlıq münasibətləri olub. Çoxsaylı dini konfessiyaların mövcud olması bizim böyük sərvətimizdir.**

O cümlədən, Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası Müqəddəs Taxt-Tacın və Azərbaycanın müştərək layihəsinin tərkib hissəsidir. Bizim fondumuz bu müştərək işi gələcəkdə davam etdirməyə həmişə hazır olacaq".

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu fikirləri bir neçə il əvvəl Vatikana səfəri çərçivəsində Müqəddəs Taxt-Tac ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində aparılan müzakirələr və fondun təşəbbüsü ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının açılış mərasimi zamanı İtaliyanın və Vatikanın aparıcı kütləvi informasiya vasitələrinin "Müsəlman ölkəsi olan Azərbaycandakı fond xristian irsinin bərpası ilə bağlı işləri nə üçün maliyyələşdirir" -sualına cavabında bildirib.

### Müsəlman ölkəsinin xristian abidəsinin bərpasına töhfə verməsinin tarixdə bir ilk olduğu diqqətdən yayınmır

Həmin səfərdən sonra İtaliyanın "Avvenire" və "La Repubblica" qəzetlərinin saytlarında , Vatikanın geniş oxucu kütləsinə malik "News.va" xəbər saytında, "Roma sette" informasiya portalında, Katolik xəbər agentliyi kimi tanınan "ACİ stampa" media qurumunun saytında, "Vatikan radiosu"nun saytında, Vatikanda dini xəbərlərin yer aldığı ən nüfuzlu qəzetlərdən biri olan "L'Osservatore Romano"da kardinal Ravazinin məxsusi məqaləsində və digər kütləvi informasiya vasitələrində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası haqqında geniş məlumatlar dərc olundu, informasiyalar yayımlandı. Xristian dünyasının önəmli mədəni dəyərlərindən olduğu bildirilən bu katakombaların bərpasının Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında -2012-ci ildə imzalanmış ikitərəfli sazişə əsasən həyata keçirildiyi eyd edilirdi. Vatikanın Mədəniyyət üzrə Pontifik Şurasının sədri, kardinal Canfranko Ravazinin müsəlman ölkəsinin xristian abidəsinin bərpasına töhfə verməsinin tarixdə bir ilk olduğunu deməsi diqqətdən yayınmır.

### Katakombalarda bərpa işləri ən son texnologiyalardan istifadə edilməklə və olduqca həssas şəkildə həyata keçirilib

Heydər Əliyev Fondunun dəstəyi ilə xristian katakombaları arasında önəmli yeri olan Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası yerli din xadimləri tərəfindən də yüksək qiymətləndirilirdi. Bildirilirdi ki, incə əl işləri ilə, həssaslıqla həyata keçirilmiş bərpadan sonra bu katakombalar Mərhəmət yubileyi çərçivəsində Romaya gələn turistlərin ən çox ziyarət etdiyi məkan olacaq.

İtaliya və Vatikan kütləvi informasiya vasitələrində dərc edilən məlumatlarda geniş oxucu kütləsinə bildirilirdi ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarında aparılan bərpa işləri ən son texnologiyalardan istifadə edilməklə və olduqca həssas şəkildə həyata keçirilib.

Yerli əhalinin xristian abidəsinin müsəlman ölkəsinin töhfəsi ilə yenidən həyata qaytarılması barədə fikir səsləndirməsi Heydər Əliyev Fondunun xeyirxah təşəbbüslərinin sərhəd tanımadığının nümunəsi kimi qəbul edilib, bunun dünya ölkələrinə nümunə olduğu bildirilib. Mehriban xanım Əliyevanın "Bizim ən böyük dəyərimiz ölkəmizdə müxtəlif dinlərin bir arada mövcudluğudur" - fikri, demək olar ki, nüfuzlu kütləvi informasiya vasitələrinin manşetində yer aldı.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond təsis olunduğu müddət ərzində təkcə ölkə həyatının bütün sahələrində irimiqyaslı layihələr həyata keçirməklə, ehtiyacı olanlara kömək əlini uzatmaqla, onlara sevinc bəxş etməklə deyil, dünyanın əksər ölkələrində, çox-çox uzaqlarda insanların, din xadimlərinin böyük sevgisini qazanıb.

### Keçirilən tədbirlər ölkəmizin, zəngin dövlətçilik ənənələrimizin dünyada tanıdılması istiqamətində əvəzsiz töhfələrdəndir

Bu gün dünyanın bir sıra ölkələrində ictimai-siyasi həyatda hökm sürən gərginliyin, kütləvi etiraz aksiyalarının və münaqişələrin daha da artdığı, miqrant axınının kütləvi xarakter aldığı, hətta bəzi regionlarda dini amildən bir vasitə kimi istifadə edilərək, sülhə və təhlükəsizliyə təhdid törədildiyi gərgin və çətin şəraitdə Azərbaycanın, xüsusilə Heydər Əliyev Fondunun əsl tolerantlıq nümunəsi göstərməsi, mədəniyyətlər və sivilizasiyalararası dialoqa geniş meydan verməsi, ölkəni bu istiqamətdə tədbirlərin keçirildiyi məkana çevirməsi dünya birliyində də yüksək qiymətə layiq görülür.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə, Romada, Vatikanda, Berlində, Londonda, Varşavada və digər ölkələrdə keçirilən tədbirlər ölkəmizin, zəngin dövlətçilik ənənələrimizin dünyada tanıdılması istiqamətində əvəzsiz töhfələrdəndir.

### Heydər Əliyev Fondu tərəfindən görülən bu işlər bir daha Azərbaycanın multikultural dövlət olduğunu göstərir

Qeyd edək ki, Fond xristian abidələrinə diqqət çərçivəsində ölkəmizin daxilində də xeyli işlər görüb. Qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələnin Nic qəsəbəsindəki Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa edilərək istifadəyə verilib. Açılışda Heydər Əliyev Fondunun nümayəndələri, rayonun rəhbər şəxsləri, Alban-Udi Dini İcmasının üzvləri, Azərbaycanda yaşayan xristianlar iştirak edib.

Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində maddi-mədəni irsə, tarixi abidələrə verilən dəyərin şahidi oluruq. Layihə çərçivəsində abidələrin təmir-bərpası işləri, Azərbaycanla yanaşı, Fransa, İtaliya, Rusiyanı əhatə edir. Fond bu ölkələrdə də bir çox tarixi abidələrin, kilsələrin təmir-bərpasını həyata keçirib, hazırda da edir. Heydər Əliyev Fondu tərəfindən görülən bu işlər bir daha Azərbaycanın multikultural dövlət olduğunu göstərir. Hazırda Qarabağın işğaldan azad olunan ərazilərinə baxdıqda məlum olur ki, ermənilər tarixi abidələrə qarşı vandalizm aktları törədib, məscidləri dağıdıblar. Azərbaycan dövləti isə kilsələri təmir edərək gələcək nəsillərə çatdırmağa çalışır. Nic qəsəbəsindəki Alban Udi Kilsəsinin tikintisinə XII əsrdə başlanılıb, XVIII əsrdə başa çatdırılıb. Sonradan bu kilsə ermənilərin əsarətinə düşüb, onlar tərəfindən dağıdılaraq yararsız hala salınıb. Heydər Əliyev Fondu 2019-cu ildə kilsənin təmirinə başlayıb, bərpa işləri başa çatdırılaraq istifadəyə verilib. Bu, Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən təmir edilən ikinci kilsədir. 2006-cı ildə udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsində "Cotari" Alban Udi kilsəsi təmir edilib. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var, xristianlarla müsəlmanlar bir yerdə həmişə mehriban yaşayıblar.

### Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsi ermənilərin Qriqorian kilsəsinin təsiri altında erməniləşdirilib

Alban Udi Dini İcmasının sədri Robert Mobili bildirib ki, Qəbələdə Müqəddəs Məryəm Ana Kilsəsinin təmir və bərpa edildikdən sonra istifadəyə verilməsini tarixi həqiqətin bərpa olunması saya bilərik: "XII əsrdə təməli qoyulan, XVIII əsrdə istifadəyə verilən bu Alban Udi Kilsəsi ermənilərin tabeliyinə verilməlidir. Təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsi ermənilərin Qriqorian kilsəsinin təsiri altında erməniləşdirilib, sənədlər, arxiv materialları, lövhələri dəyişdirilərək saxtalaşdırılıb. İndi Udilərin tarixi həqiqəti bərpa olunur. Bu gün kilsədə birinci duamız Qarabağın erməni işğalından azad edilməsi uğrunda döyüşən Azərbaycan əsgəri üçün oldu. Biz çox sevinirik ki, Qarabağdakı şəhərlər və kəndlər erməni işğalından azad edilir. Ermənilər Qarabağda İslamla bağlı, Qədim Qafqaz Albaniyası ilə bağlı tarixi məhv ediblər. Qarabağdakı kilsələr Alban xristianlarına məxsusdur, sonradan ermənilər onları öz adlarına çıxıblar. Qarabağdakı tarixi Alban məbədlərinin böyük bir qismi ermənilər tərəfindən qriqorianlaşdırılıb. Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq hazırda Qəbələ və Oğuzdakı alban məbədlərində ibadət etdiyimiz kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Laçındakı Ağoğlan, Kəlbəcərdəki Gəncəsər, Ağdərədəki Müqəddəs Yelisey və onlarla digər belə məbədlərdə ibadət edəcəyimiz günləri səbrsizliklə gözləyirik".

### Erməni (Qriqori) kilsəsi bərpa edilib və ziyarət üçün açıqdır

Qeyd edək ki, "Xristian irsimizi tanıyaq" adlı layihə çərçivəsində Azərbaycan ərazisində xristian dininə aid olan və dövlət tərəfindən qorunan məbədlər, kilsələr və ibadətgahlara dair qısa videoçarxlar təqdim olunur. İlk videoçarx Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən Kiş Alban məbədinə həsr olunub.

Azərbaycanda xristianlıq hələ İsa Məsihin həvariləri dövründə - eramızın I-II əsrlərində yayılmağa başlayıb. Bu fəaliyyət xristianlığı yaymaq məqsədilə qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına gələn həvarilər Varfolomey və Faddeyin, eləcə də Faddeyin yetirmələri olan Yelisey və Marın adları ilə bağlıdır. Həmin dövrdə indiki Şəki rayonunun Kiş kəndi ərazisində "Şərq kilsələrinin anası" kimi məşhurlaşan Qafqazın ilk xristian məbədinin əsası qoyulub. Daha sonra Qafqaz Albaniyasının digər yerlərində də xristian icmaları meydana gəlib, beləliklə, həvari mənşəli Alban Kilsəsi təşəkkül tapıb.

Multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqlar və dinlərin nümayəndələri əsrlərdir dinc yanaşı yaşayır, qurub-yaradırlar. Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir və onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən mühafizə olunur. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-ci ilin oktyabr ayında Azərbaycana səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirib.

Son 20 ildə Bakıdakı Rus Pravoslav Baş Kafedral kilsəsi ("Jen Mironosets" pravoslav kafedral kilsəsi), "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav kilsəsi dövlət tərəfindən təmir edilib, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən Erməni (Qriqori) kilsəsi bərpa edilib və ziyarət üçün açıqdır. Burada qədim kitablar da qorunub saxlanılır və kilsəni ziyarət edən xarici qonaqlar da bunu təqdirlə qeyd edirlər.

### İşğaldan azad edilmiş ərazilərimizdə də xristian dini mirasına dövlətin böyük diqqəti var

Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında xristian irsinin qorunmasına töhfələr verməsini sadalayacağımız faktlar bir daha subut edir. Ölkəmizin dəstəyilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası, Azərbaycan Prezidentinin təşəbbüsü ilə Rusiyada xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə həsr edilən Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsinin ucaldılması bu faktların sırasındadır. Bununla yanaşı, Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım edilib. İşğaldan azad edilmiş ərazilərimizdə də xristian dini irsinin və abidələrinin mənşəyindən asılı olmayaraq yüksək səviyyədə qorunması, bərpa edilərək istifadəyə verilməsi istiqamətində işlər görülür.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**